Qədim hind müdrikləri demişlər: "Cəmiyyət də ayrılıqda bir insan kimidir. Yeni nə isə yaratmaq istəməyən, kimdənsə öyrənməyə çalışmayan, hərəkətsiz, süst adam tezliklə tükənib sıradan çıxdığı kimi, durğun cəmiyyət, fəaliyyətsiz dövlət də mütləq uğursuzluğa məhkumdur. Daim yeniləşən cəmiyyət isə həmişə hədəfinə çata bilir."

*Struktur islahatları, siyasi islahatlar, iqtisadi islahatlar lazımdır... Kadr islahatları gedir, bu da zərurətdir, durğunluq yarada bilmərik, sovet dövrünün durğunluğu hələ ki, yadımızdan çıxmayıb. Ona görə kadr islahatları aparılmalıdır, ancaq təkamül yolu ilə, təbii yolla, burada da heç bir əyintilərə yol verməq olmaz.*

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

# İslahatlar inkişafın sürətləndirilməsinə xidmət edir

Bu kəlamın hansı əsrdə, kim tərəfindən deyildiyini dəqiq bilməsək də, onun bugünki Azərbaycan həqiqətlərinə uyğunluğunu görürük. "Sərhədləri bağlayaraq ölkəni inkişaf etdirmək" istəyən AXC-Müsavat iqtidarının fəaliyyətsizliyinin fəsadları da gözümüzün qabağında baş verib, Heydər Əliyev siyasi kursunun ölkə həyatının bütün sahələrində apardığı islahatların nəticələrini də gündəlik həyatımızda görürük.

Hind filosofu ölkəni idarə edənlərə o şəkildə xəbərdarlıq edirdisə, Davos Ümumdünya Forumunun Azərbaycan rəhbərliyinin fəaliyyətinə verdiyi qiymət bu şəkildə dilə gətirilir: "İslahatlara meyillilik və rəhbərliyə olan inam əmsalına görə bu ölkə dünyada birinci onluqdadır". Bəli, bunu dünyanın ən nüfuzlu qurumlarından birinin hesabatında yazırlar. Dünya Bankının hesabatında isə deyilir ki, Azərbaycan 10 ən islahatçı ölkə sırasındadır. Xüsusilə vurğulayaq ki, Azərbaycanın həmin uğurlarını bizi istəməyən qüvvələr də görür və etiraf etmək məcburiyyətində qalırlar.

Bakı Dövlət Universitetinin 100 illik yubileyinə həsr olunmuş təntənəli mərasimdə geniş nitq söyləyən Prezident İlham Əliyev ölkədə aparılan hərtərəfli islahatların bizim şüurlu seçimimiz olduğunu söylədi: "Elə fərz edə bilərik ki, nəyə lazımdır bu islahatlar? Onsuz da hər şey yolunda gedir, ölkə inkişaf edir, yeni müəssisələr açılır, abadlıq işləri görülür. Yox, struktur islahatları, siyasi islahatlar, iqtisadi islahatlar lazımdır. Baxın, iqtisadi islahatlar nəticəsində təkcə bu ilin on ayında büdcəyə 850 milyon manatdan çox vəsait toplamışıq. Bunları sosial sahəyə yönəldirik. Amma bu, hələ islahatların növbəti mərhələsinin birinci addımlarıdır. Bundan sonra da daha böyük addımlar atılacaqdır".

Dövlət başçımız ölkədə aparılan kadr islahatlarını zərurət adlandıraraq dedi ki, biz durğunluq yarada bilmərik, sovet dövrünün durğunluğu hələ ki, yadımızdan çıxmayıb. Ona görə kadr islahatları aparılmalıdır, ancaq təkamül yolu ilə, təbii yolla, burada da heç bir əyintilərə yol verməq olmaz: "Mən bir neçə dəfə bu məsələ ilə bağlı fikirlərimi deyəndən sonra bəziləri başladılar bəzi adamların yaşını hesablamağa ki, bunun 70 yaşı var, getməlidir, qətiyyən belə şey ola bilməz. Sonra dedim mən imkan verməyərəm ki, kampaniya aparılsın. Təcrübə, bilik və gənclərin dinamizmi, novatorluğu, yeniliyə, islahatlara meyilliyi – bu sintez Azərbaycanda var. Həm cəmiyyətdə, həm iqtidarda var. Biz ənənəvi dəyərlər üzərində dövlət qururuq, böyük-kiçik var".

Dövlət başçımız həmin nitqindən bir neçə gün sonra verdiyi sərəncamlarla Prezident Administrasiyasının strukturunda kifayət qədər islahatların aparılmasına nail oldu. Yəni həmin gün həm struktur, həm də kadr islahatlarının növbəti addımlarına şahidlik etdik. Həmin sərəncamların Yeni Azərbaycan Partiyası Siyasi Şurasının ölkə parlamentinin buraxılması təşəbbüsünü müzakirə etməsi ilə eyni vaxta düşməsi insanlarda inam yaratdı ki, bu gün Azərbaycanda cəmiyyət həyatının bütün sahələri daha çevik fəaliyyət göstərə biləcək səviyyəyə qaldırılır. Yəni islahatlar dönməzdir, davamlıdır və onlar nəzərdə tutulan hədəfə nail olunca davam etdiriləcək.

Ekspertlər yazırlar ki, Prezident İlham Əliyevin həyata keçirdiyi genişmiqyaslı, prinsipial və milli maraqlara əsaslanan siyasət nəticəsində Azərbaycan dinamik inkişaf edən güclü ölkəyə çevrilib. Bu gün Azərbaycan artıq yüksək beynəlxalq nüfuza malik bir dövlət kimi tanınır və qəbul edilir. Ölkəmizdəki mövcud sosial-iqtisadi infrastrukturun müasir tələblərə uyğun yenidən qurulması, iqtisadiyyatın şaxələndirilməsi, qeyri-neft sektorunda güclü potensial yaradılması, əhalinin sosial təminatı sahəsində atılan inqilabi addımlar dövlətimizin qarşıya qoyduğu prioritetlərdəndir.

Təbii ki, aparılan islahatlar, ilk növbədə, ölkə əhalisinin maddi durumunda özünü göstərir. Əməkhaqlarının, pensiyaların, müavinətlərin, təqaüdlərin ardıcıl olaraq artırılması da məhz bu islahatların nəticələrindən qaynaqlanır.

Bu il noyabrın 14-də Bakıda Dünya dini liderlərinin II sammitinin açılışında geniş nitq söyləyən dövlət başçımız xatırladtı ki, bizim iqtisadi göstəricilərimiz çox müsbətdir: "2003-cü ildən bu günə qədər ölkə iqtisadiyyatı 3,2 dəfə artmışdır, savadlılıq 100 faizə yaxındır, yoxsulluq son 16 il ərzində təxminən 50 faizdən 5 faizə düşmüşdür. Azərbaycan texnoloji inkişafa böyük önəm verir və bu gün dünyanın məhdud sayda olan kosmik klubunun üzvüdür, üç peykimiz var. Önəmli nəqliyyat layihələri icra edilir. Bu layihələr, sadəcə olaraq, nəqliyyat layihələri deyil, bu, əməkdaşlıq layihələridir. Çünki nəqliyyat elə bir sahədir ki, qonşu ölkələr və digər bölgə ölkələri bir-birindən asılı olurlar. Azərbaycan açıq dənizlərə çıxışı olmayan bir ölkə kimi artıq beynəlxalq nəqliyyat mərkəzlərindən birinə çevrilmişdir, Şərq–Qərb və Şimal–Cənub nəqliyyat dəhlizləri Azərbaycanın ərazisindən keçir".

Bəli, bütün bu nailiyyətlər deməyə əsas verir ki, ölkəmizin inkişafı bundan sonra da uğurlu, gələcəyimiz parlaq olacaq. Bunun əsas şərti daxili sabitlikdir. Prezidentin xatırlatdığı kimi, sabitliyin təminatçısı isə Azərbaycan xalqıdır, onun rəyidir, onun öz dövlətinə verdiyi dəstəkdir. Xalq-iqtidar birliyi Azərbaycanın uğurlu inkişafının əsas amillərindən biridir və bu, bizim gücümüzü artırır.

Elə aparılan hərtərəfli islahatların daha böyük uğurlarla nəticələnməsində də Prezidentin ən böyük dayağı məhz Azərbaycan xalqı, ölkə vətəndaşlarıdır.

***İttifaq MİRZƏBƏYLİ,***
***"Xalq qəzeti"***

Xalq qəzeti.- 2019.- 5 oktyabr. S. 10.